AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ

# Ə M R

№ 52

**Bakı şəhəri** « 10 » 07. 2018 il

**" Respublikanın səhiyyə müəssisələrinin elektrik enerjisi ilə fasiləsiz təminatı barədə"**

Ölkə Prezidenti cənab İlham Əliyevin dəstəyi ilə son illər ərzində respublikamızın şəhər və rayonlarında tibb müəssisələri yenidən tikilmiş və ya əsaslı təmir olunmuş, aparıcı texnologiyalarla, müasir tibbi avadanlıqlarla təchiz edilmişdir. Bütün bu səhiyyə ocaqları eyni zamanda avtonom elektrik mənbələri ilə də təmin edilmişdir.

Bunun nəticəsidir ki, 03.07.2018-ci il tarixdə Respublikanın elektrik təminatı sistemində baş vermiş açılmalar zamanı mövcud generatorların hesabına səhiyyə müəssisələri fasiləsiz elektrik enerjisi ilə təmin edilmiş və həmin gecə stasionarda olan xəstələrin heç biri hadisədən ziyan çəkməmişdir. Bununla yanaşı bəzi səhiyyə müəssisələrinin elektrik generatorlarda texniki nasazlıq baş vermişdir.

Gələcəkdə belə halların qarşısının alınması məqsədilə

**ƏMR EDİRƏM:**

1 .Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın:

1.1. rəhbərlik etdikləri müəssisədə mövcud olan generatorlar mütəmadi olaraq müvafiq texniki müayinədən keçirilsin;

1.2. elektrik generatorlarının daima işlək vəziyyətdə saxlanılmasına nəzarət üçün müvafiq məsul şəxs təyin edilsin, nasazlıq aşkar olunduğu hallar dərhal aradan qaldırılsın;

1.3. elektrik generatorları üçün zəruri olan ehtiyyat yanacaq təminatı daima nəzarətdə saxlanılsın;

2. Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi E.Əliyevaya tapşırılsın ki, 03.07.2018-ci il tarixdə respublikanın elektrik təminatı sistemində baş vermiş açılma zaman Bakı şəhəri Kliniki Tibbi Mərkəzdə elektrik generatorunun nasazlığı səbəbindən bəzi şöbələrin elektrik enerjisiz qalması araşdırılsın və cavabdeh şəxslər barədə müvafiq tədbirlər görülsün.

3. Əmrin icrasına nəzarət nazir müavini Elsevər Ağayevə tapşırılsın.

**Nazir** **Oqtay Şirəliyev**